CASPIAN LLOYD

Təsnifat Cəmiyyəti

Classification Society

CASPIAN LLOYD
HAQQINDA

ÖN SÖZ

Hörmətli oxucu!

Caspian Lloyd beynəlxalq təsnifat cəmiyyəti-Azərbaycan Respublikasının dövlət bayrağı altında üzən gəmilərdə və üzən qurğularda başqa hallar nəzərdə tutulmadıqda gəmilərin, avadanlıq və materialların, o cümlədən konteynerlərin qanunla müəyyən edilmiş zəruri şəhadətnamələrlə təmin edilməsini, təsnifatını və Dövlət Dəniz və Liman Agentliyi tərəfindən ona verilmiş səlahiyyətlər çərçivəsində xidmətlərin göstərilməsini həyata keçirir.

Dəniz nəqliyyatının formalaşdırılması yolunda əmin addımlarla irəliləyən "Caspian Lloyd" Məhdud Məsuliyyətli Cəmiyyəti 19 may 2022-ci ildə təsis edilmiş beynəlxalq təsnifat cəmiyyətidir.Cəmiyyətin başlıca məqsədi,təsnifat prosesi zamanı gəmiyə, gəminin strukturuna, gövdə materialına və avadanlıqlarına dair qaydaların, təlimat qeydlərinin və digər sənədlərin hazırlanması, mütəmadi olaraq mühəndis-müfəttişlər tərəfindən gəmiyə baxış keçirilməsi, gəminin təsnifatının təyini, Təsnifat Şəhadətnaməsinin verilməsi, həmçinin Caspian Lloyd MMC-yə verilən səlahiyyətlər çərçivəsində digər çoxşaxəli müvafiq xidmətlərin göstərilməsidir.

CASPIAN LLOYD

CASPIAN LLOYD

Caspian Lloyd MMC Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində Dövlət Dəniz və Liman Agentliyi tərəfindən bilavasitə tanınan bir Cəmiyyətdir. Caspian Lloyd MMC-yə verilən səlahiyyətlər çərçivəsində texniki sənədlərə baxılması, texniki nəzarətin həyata keçirilməsi, gəmilərə və üzən qurğulara, habelə gəmi mexanizmlərinə, avadanlıqlarına, cihazlarına, məlumatlarına, ləvazimatlarına, qaldırıcı qurğulara, konteynerlərə sənədlərin, şəhadətnamələrin, və aktların verilməsi şirkətin göstərdiyi digər xidmətlər arasındadır. Dəniz xətaları bağışlamayan bir eksosistem olduğundan gəmilərin dənizlərdə istənilən şəraitdə tələblərə cavab verməsi, gəmidə çalışan işçi heyətinin sağlamlığı və təhlükəsizliyi eləcə də dəniz suyunun ekoloji təmizliyi üçün gəminin sazlıq vəziyyəti və bütün beynəlxalq standartlara uyğun olması dəniz həyatında çox mühüm rol oynayır.

Bunun əhəmiyyətini dərindən başa düşən Caspian Lloyd MMC öz müfəttişlərindən işlərin,Dəniz və Liman Agentliyinin müfəttişləri ilə birlikdə, koordinasiyalı şəkildə həyata keçirilməsini(sıx əlaqədə olaraq birgə iş görmək vəzifəsini hər zaman)tələb edir.

Mühəndislərimiz baxış zamanı istismarda olan gəmilərdə hər növ təsnifləşdirici və konvensiya üzrə baxışın həyata keçirilməsini,texniki sənədlərə baxış, iş və xidmətlərin icra olunmasını müvəfəqiyyətlə yerinə yetirirlər.

CASPIAN LLOYD

CASPIAN LLOYD

CASPIAN LLOYD-un əsas fəaliyyət sahələri:

Təsnifat Şəhadətnamələri
Gəmiyə texniki baxış

CASPIAN LLOYD aşağıdakı sertifikatlara sahibdir və beynəlxalq konvensiyaların tələblərinə uyğun fəaliyyət göstərir:

- **ISO 9001:2015** (Keyfiyyətin idarə edilməsi)
- **SOLAS** (Dənizdə həyat təhlükəsizliyi üzrə beynəlxalq konvensiya)
- **MARPOL** (Dəniz çirklənməsi əleyhinə konvensiya)
- **LSA** (Dənizdə xilasedici vasitələr üzrə Beynəlxalq Konvensiya)

CASPIAN LLOYD

7

CASPIAN LLOYD

CASPIAN LLOYD Tərəfindən verilən Şəhadətnamələr:

- Yük gəmisinin quruluşu üzrə təhlükəsizliyi haqqında şəhadətnamə
- Yük gəmisinin avadanlıq üzrə təhlükəsizliyi haqqında şəhadətnamə
- Sərnişin gəmisinin təhlükəsizliyi haqqında şəhadətnamə
- Özü hərəkət edən qazma qurğularının təhlükəsizliyi haqqında şəhadətnamə
- Neftlə çirkləndirmənin qarşısının alınması haqqında şəhadətnamə
- Atmosferin çirkləndirilməsinin qarşısının alınması haqqında beynəlxalq şəhadətnamə
- Enerji effektliyi haqqında beynəlxalq şəhadətnamə
- Yük nişanı haqqında beynəlxalq şəhadətnamə
- Dənizdə əməyə dair müvəqqəti şəhadətnamə
- Yük gəmisinin radio avadanlığı üzrə təhlükəsizliyi haqqında şəhadətnamə
- Yüksək sürətli katerlərin təhlükəsizliyi şəhadətnaməsi
- Maye halında olan zərərli maddələrin tökmə üsulu ilə daşınması üçün çirkləndirmənin qarşısının alınması haqqında beynəlxalq şəhadətnamə
- Çirkab sularla çirkləndirmənin qarşısının alınması haqqında beynəlxalq şəhadətnamə
- Mühərriklərdən atmosferin çirkləndirilməsinin qarşısının alınması haqqında Beynəlxalq şəhadətnamə və s.

Dəniz Nəqliyyatının Formalaşdırılması

Ünvan: Bakı şəhər Nərimanov r.
Oqtay Kərimov 37
E-mail: info@caspianlloyd.az
Tel: (+994) 12 465 18 41
(+994) 51 990 66 36